# Türkiyədə terror dönəmi sona çatır

## PKK gec də olsa, silahı yerə qoyur

Xəbər verildiyi kimi, terrorçu PKK təşkilatı özünü buraxaraq tərksilah edilməsi qərarını açıqlayıb. Bildirilir ki, PKK-nın 12-ci qurultayı partiyanın təşkilati strukturunun ləğvi və silahlı mübarizədən əl çəkməsi barədə qərar qəbul edib.





Qərar PKK hərbi komandanlığı və döyüşçülərinin yerləşdiyi Şimali İraqın şimalındakı Qəndil dağlarında mayın 5-dən 7-dək "mühafizə zonaları" adlanan ərazidə keçirilən konqresdən sonra verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev PKK terror qruplaşmasının özünü ləğv etməsi ilə əlaqədar Türkiyə xalqını təbrik edib. Dövlətimizin başçısı "X" sosial şəbəkə hesabında bununla bağlı etdiyi paylaşımda bildirib: "Başda əziz Qardaşım, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan olmaqla bütün qardaş Türkiyə xalqını PKK terror qruplaşmasının özünü ləğv etmək və silahı yerə qoymaq qərarı münasibətilə ürəkdən təbrik edirəm. Əziz Qardaşımın bəyan etdiyi "Terrorsuz Türkiyə" hədəfinə çatmaqda vacib mərhələ olan bu hadisə dövlətçilik yolunda ölkədə aparılan qətiyyətli siyasətin nəticəsi, güclü liderliyin və sarsılmaz iradənin, milli birliyin və həmrəyliyin təntənəsidir. Alınmış qərarın tam icrası istiqamətində Türkiyə dövlətinə və xalqına uğurlar arzulayıram".

Xatırladaq ki, bu ilin fevralında kürd terrorçularının lideri, 1999-cu ildən İstanbul yaxınlığındakı İmralı adasında ömürlük həbs cəzası çəkən 76 yaşlı Abdulla Öcalan tərəfdarlarını rəsmən dağılmaq qərarı verməyə çağırıb.

Hazırda Ankarada PKK-nın özünü buraxması faktı ilə yanaşı, silahların təhvil verilməsi prosesinin praktiki həyata keçirilməsi də müzakirə edilir. Bununla bağlı Türkiyənin müdafiə naziri Yaşar Gülər İraqın şimalında kürdlərin silahlarını təhvil vermələri üçün uyğun yerlərin müəyyən edildiyini bildirib.

Proses BMT nümayəndələrinin nəzarəti altında baş tutacaq və üç mərhələdən ibarət olacaq. BMT nəzarətçiləri ilə yanaşı, PKK-nın tərksilah prosesini beynəlxalq müşahidəçilər və xüsusi xidmət orqanı - Türkiyə Milli Kəşfiyyat Təşkilatının (MİT) nümayəndələri də izləyəcəklər. Onlar iyunun sonuna kimi tərksilah şərtlərinin tam yerinə yetirilməsini və bütün silahların təhvil verilməsini təmin etməlidirlər. Məxfi xidmətlər prosesin bitdiyi barədə dövlətə hesabat verdiyi andan PKK rəsmi tərksilah edilmiş və ləğv olunmuş sayılacaq.

Üç mərhələdən ibarət plan çərçivəsində silahların təhvil verilməsinin Dahuk vilayətinin Amediye və Binar rayonları, həmçinin Ərbilin Köysancak rayonundakı Seyid Sadiq bölgələrində həyata keçiriləcəyi artıq müəyyən edilib. Kürd silahlılarının liderlərinə, yəni PKK rəhbərliyinin Cəmil Bayık və Murat Karayılan kimi nümayəndələrinə gəlincə, onların üçüncü ölkələrə deportasiya olunacağı gözlənilir. Qəbul edən tərəf Avropa ölkələrindən biri və ya Cənubi Afrika Respublikası ola bilər.

Bu arada PKK nümayəndələri 2018-ci ildə Öcalanla birlikdə terror təşkilatını yaradan Əli Heydər Kaytanın, eləcə də 2019-cu ildə onun ardınca gələn Rza Altunun ölümünü rəsmən təsdiqləyib.

PKK üzvlərinin ikinci qrupunu uzun illər terror fəaliyyəti ilə məşğul olan silahlılar təşkil edir. Həmin şəxslər vətəndaşı olduqları ölkələrin qanunlarına uyğun şəkildə məsuliyyətə cəlb ediləcəklər. Və nəhayət, üçüncü qrup adətən aldatma və ya hədə-qorxu ilə PKK fəaliyyətlərinə cəlb edilən yeniyetmələrdən ibarətdir. BMT-nin hesabatlarına görə, təşkilatın sıralarına dağ düşərgələrinə aparılmış xeyli sayda uşaq və yeniyetmə daxildir. Onların şəxsiyyətləri haqqında mövcud məlumatlara əsaslanaraq, cəmiyyətə yenidən inteqrasiya etmək üçün sosial və psixoloji proqramlardan istifadə olunacaq.

Bundan başqa, Türkiyə həbsxanalarında müxtəlif cəza çəkən yaşlı və ağır xəstə PKK üzvləri ilə bağlı müstəsna qərarların qəbulu gözlənilir. Öcalana gəlincə, Prezident Ərdoğan AKP millət vəkilləri ilə qapalı görüşdə onun azadlığa buraxılması məsələsinin nəzərdən keçirilmədiyini açıqlayıb. Həmçinin bildirilir ki, o özü də şəxsi təhlükəsizliyi ilə bağlı narahatlıq keçirərək buraxılmasını tələb etmir. Yerli media isə yazır ki, Ankaranın siyasi dairələri PKK-nın tam şəkildə buraxılacağı və tərksilah olacağı halda Öcalanın təcrid rejiminin aradan qaldırılmasının mümkünlüyünü müzakirə edirlər. Eyni zamanda onun proseslərdə fəal iştirak edən Demokrat Partiyasının ali lideri ola biləcəyi də istisna olunmur.

Bununla belə, Ankarada PKK-nın özünü ləğv etməsi elanına hələ də təmkinlə yanaşılır. Məsələn,Türkiyənin xarici işlər naziri Hakan Fidan PKK-nın təkcə Qəndildəki əsas bazasına deyil, həm də Suriya, İran, Yəmən və Avropadakı qollarına işarə edərək deyib ki, "təkcə silahı yerə qoymaq kifayət deyil, bütün qanunsuz strukturlar məhv edilməlidir". Nazir Ankarada Türkiyə, Livan və Suriya xarici işlər nazirlərinin üçtərəfli görüşünün yekunlarına dair brifinqdə çıxış edərək əmin edib ki, Ankara terror təşkilatının özünü ləğv etməsi ilə bağlı bəyanatından sonra əməli addımları izləyəcək. Fidan PKK terrorçularının fəaliyyətinin dayandırılması qərarını "bölgədə uzunmüddətli sülh və sabitlik yolunda tarixi və mühüm addım" adlandırıb: "Bu qərar səmimiyyətlə həyata keçirilərsə, gələcəyimizə, vətəndaşlarımızın gələcəyinə çox müsbət təsir göstərəcək".

Xatırladaq ki, Kürdüstan Fəhlə Partiyası (PKK) 1970-ci illərdə Abdulla Öcalan və tərəfdarları tərəfindən kürd millətçiliyi və marksizm-leninizm ideyaları əsasında yaradılıb. Təşkilat müstəqil Kürdüstan yaratmağı qarşısına məqsəd qoymuş və Türkiyə dövlətinə qarşı silahlı terrora başlamışdı. PKK-nın həyata keçirdiyi terror aktları nəticəsində 1984-cü ildən bu yana 40 mindən çox insan həyatını itirmişdir. ABŞ, Böyük Britaniya, Avropa İttifaqı və NATO PKK-nı terror təşkilatı kimi tanıyır.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

Azərbaycan. - 2025.- 14 may (№98).- S.9.